Zahid Xəlil

# Orxan Vəfa və Bənək



u
84(5Aze)
X 48

Zahid Xəlil

# Orxan Vəfa və Bənək

fond 2015

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 85929

Bakı- 2015

# Orxanla Vəfanın tanış olması

Orxanın Vəfayla tanışlığı telefondan başlandı. Məsələ burasındadır ki, Vəfanın hələ üç yaşı olanda telefonla danışmaq həvəsinə düşmüşdü. Atası Şahbuzdakı babası ilə danışıb söhbəti qurtarandan sonra telefonun dəstəyini yerinə qoyardı. Vəfanın növbəsi bundan sonra başlayardı. Dəstəyi götürüb babası ilə danışardı:

-Baba, tez gəl, məni Şahbuza apar.

Dəstəkdən səs gəlib-gəlməməsinin isə Vəfaya qətiyyən dəxli yox idi. O bəzən telefonu götürüb hara istəsə zəng vura bilirdi.

Sonra haradansa öyrəndi ki, dəstəkdən danışdığın adamın səsi gəlməlidir. Hə, bax bundan sonra qızın kefi duruldu. Tez dəstəyi götürüb danışdı:

-Salam Manaf, necəsən? Tez gəl!

Sonra diqqətlə dəstəyə qulaq asdı ki, görsün Manaf ona nə cavab verir, bir səs eşitmədi. Buna görə də hirslənib dedi:

-Karsan? Niyə cavab vermirsən?

Bundan sonra da cavab eşitmədiyi üçün ağlamağa başladı.

Atası Vəfanın ağladığını görüb dedi:

-Nə olub, yoxsa qardaşın səni vurub?

-Yox, mən onunla telefonla danışıram, amma o, mənə cavab vemir.

Bu zaman heç nədən xəbəri olmayan Manaf o biri otaqdan gəlib çıxdı. Bacısının dələ quyruğuna oxşayan xurmayı saçlarını sığallamaq istəyəndə qız qaçdı.

-Mən səndən küsmüşəm. Səhərdən telefonda soruşuram ki, necəsən, amma sən heç cavab da vermirsən.

-Axı mən evdə idim, telefonla danışmırdım. Gəl səni başa salım,- deyə Manaf Vəfanın gözündən axan muncuq-muncuq göz yaşlarını sildi. Bu muncuqlar sərçə gözü kimi balaca və büllur idi.

Manaf dedi:

-Telefonla danışmaq üçün gərək bir nömrə yığasan. Bax belə.

Manaf ağlına gələn nömrəni yığdı. Daha doğrusu Vəfanın yaşını, sonra Zərifənin yaşını, sonra babanın, nənənin, ata və ananın yaşına uyğun gələn rəqəmləri sıra ilə yığdı. Telefon həmin nömrəni çağırmağa başladı və Vəfa dəstəkdən səs eşitdi:

-Alo, kimi istəyirsiniz?

Qız çaşıb qaldı. Manaf bacısınınn çaşdığını görüb dəstəyi aldı və özü danışmağa başladı:

-Alo, danışan kimdir?

-Orxan!

-Sənin neçə yaşın var?

-Dörd.

-Mənim bacının da üç yaşı var. Al onunla danış.

Vəfa dəstəyi alan kimi danışmağa başladı.

-Mənim adım Vəfadır. Üç yaşım var. Şəkil çəkə bilirəm. İstəsən sənə də öyrədərəm. Gərək tülkü ilə qazı bir yerdə çəkməyəsən. Bildin?

-Mən də velosiped sürə bilirəm.

Onlar beləcə tanış oldular və artıq beş ildir, demək olar ki, hər gün telefonla danışırlar. Vəfa təzə şəkillərindən, Orxan da cürbəcür işlərdən ona məlumat verirdi.



# Uçan maşınlar

Sən demə onlar lap yaxın qonşu imişlər və necə olub ki, indiyə kimi bu barədə heç nə bilməyiblər. Hərdən həyətə çıxıb söhbət edirdilər. Vəfa elə şeylər danışırdı ki, Orxanın ağzı açıla qalırdı. Afrikadakı uçan fillərdən, Şimal okeanında yaşayan su atlarından .

-Sən uçan maşın görmüsən? -bir dəfə Vəfa soruşdu:

-Təyyarəni deyirsən?!

-Yox əşşi, təyyarə nədi, sənə uçan maşın deyirəm. İstəsən yerlə sürərsən, istəsən lap göyə qaldırarsan. Sonra Vəfa maşının şəklini çəkib gətirdi. Maşının beli maili idi. Pəncərələri isə təyyarələrdə olan kimi çəkilmişdi. Qanadları yoxdu.

-Bəs qanadsız bu maşın necə uçur?

-Bax burada rulun yanında düymə var basırsan, qanad açılır.

Orxan nə qədər əlləşdisə rolun yanındakı həmin düyməni görə bilmədi. Çünki Vəfanın çəkdiyi şəkildə bu düymə qətiyyən görünmürdü.

-Atam deyir ki, bu maşınlar hələ heç kəsə bəlli deyil. Onu Afrikada uşaqlar hazırlayıblar. Amma benzinləri olmadığı üçün hələ də uçan maşınlarını sürə bilmirlər.

-Bizim belə maşınımız olsaydı sürərdik. Atamın maşınında benzin həmişə olur.

Uçan maşınlar haqqında demək olar ki, onlar hər dəfə söhbət edirdilər.

# Velosipedin qanadı

Şəhəri qanad hazır oldu. O adi ağ parçadan düzəldilmişdi. Parçanın qırağına nazik taxta yapışdırmışdılar ki, düz dayansın. Taxta elə yapışdırılmışdı ki, qanad yığılıb hər iki tərəfdən arxa təkərin qıraqlarında rahatca dayana bilirdi. Vəfanın atası iki balaca qanad da düzəltməyi təklif etdi.

-Bilirsiniz, velosiped uçan zaman havada çevrilməsin deyə, qabaq təkərlərin yanında iki qanadcıq olmalıdır.

Uşaqlar işə başladılar. Ata taxta parçalarını özü yonub düzəldirdi. Orxan əvvəl özü düzəltmək istədi. Amma nə qədər əlləşdisə taxtaları düz kəsə bilmədi. Buna görə də həmin işləri Vəfanın atası görməli oldu.

Yarış günü hər şey hazır idi. Orxan velosipedini minib məktəbə gələndə onu ilk dəfə Natiq qarşıladı. Velosipedin arxa təkərinin yanlarından sallanan qanadlardan baş çıxartmayıb soruşdu:

-Bura bax, bu quyruq nədi belə. Yoxsa kəhər atdı, hə?

-Yox, bu əsl velosipeddi ki, var, -deyə Vəfa Orxandan qabaq dilləndi.

-Elə, bu quyruqlu təkərlərlə sən yarı yolda qalarsan,-Natiq dilləndi. -Qoy çıxardım.

-Get işinə, -Vəfa onun sinəsindən itələdi. -Sənə qalmayıb.

Uşaqlar Orxanın quyruqlu velosipedindən baş çıxartmayıb yarışın nəticəsini gözlədilər. Rəşid yenə də ağ diskli velosipedində gəlmişdi. Velosipedin roluna uzun bir quş qanadı da taxmışdı.





# Yarış başlanır

Bir azdan məktəbin idman müəllimi Həqiqət xanım gəlib çıxdı. Onun əlində həqiqi idman tapançası vardı.

-Deməli lap həqiqi yarışdı ha? -Natiq yenə Rəşidə müraciət etdi. Rəşid çevrilib ona cavab verənə qədər uşaqlar bir də gördülər ki, Orxanın iti Bənək özünü yetirdi. O yüyürüb Orxanın əlini yaladı, velosipedin hər tərəfini imsiləyib kənara çəkildi. Bənək özünü yarışa lap vaxtında yetirmişdi. O geri çəkilib elə təzəcə yerə uzanaraq dilini çölə çıxartmışdı ki, tapançadan atəş açıldı. İt bilmədi ki, nə hadisə baş verdi. Bir-iki ağız hürüb Orxana baxdı ki, görsün nə olub. Bu zaman artıq velosipedlər yerindən tərpəndi və it də onlara qoşulub qaçmağa başladı.

-Geri, qayıt, biz lap uzağa gedirik. Yorulub yolda qalarsan, -deyə Orxan onun üstünə acıqlandı. Amma kimə deyirsən. Bənək onlardan da bərk yüyürüb lap qabaqda gedirdi. Hərdən dilini çıxarıb geri baxır, quyruğunu bulaya-bulaya irəli atılırdı. Velosipedçilər sürəti yavaş-yavaş artırdılar.



# Velosiped uçur

Velosipedçilər üçün gözlənilməyən bir hadisə baş verdi. Hamıdan arxada gələn Orxan velosipedin qanadını açan kimi velosiped havaya qalxdı və uçmağa başladı. O, pedalı hərlədib arxa təkəri işlətdikcə qanadın altındakı pərlər sürətlə fırlanır, velosipedsə yuxarı qalxırdı. Bənək altdan-yuxarı bərkdən hürdü. Öz dilində Orxandan neylədiyini soruşdu. Amma, Orxan artıq demək olar ki, özünü itirmişdi və pedalı elə-belə kortəbii işlədirdi. Artıq xeyli hündürə qalxan velosiped birdən arxası üstə çevrildi. Bax bu, tamam gözlənilməz oldu və Vəfa yalnız indi gördü ki, Orxan velosipedin qabaq təkərə birləşən qanadcıqlarını açmayıb. Belə getsəydi Orxan arxası üstə asfalta dəyə bilərdi. Çünki arxa qanadlar açıq olsa da velosiped tərsinə çevrildiyi üçün sürətlə aşağı enirdi. Vəfa var gücü ilə qışqırdı:

-Orxannn!... Qabaq qanadları açmamısan.- Orxan velosipedin rolundan bərk yapışmışdı. Bir şeyə də sevinirdi ki, əvvəldən özünü velosipedə bərk-bərk bağlamışdı. Yoxsa yəqin ki, çoxdan kəllə-mayallaq olmuşdur.

Vəfanın səsini eşidən kimi baxıb gördü ki, doğrudan da qabaq qanadları açmaq tamam yadından çıxıb. Birtəhər həmin qanadları açdı. Qanadlar açılan kimi velosiped yenidən çevrilib düz dayandı və uçmağa davam etdi. Sevincindən Orxan velosipedin pedalını daha da böyük sürətlə fırlamağa başladı. O qədər yuxarı qalxdı ki, axırda aşağıdan baxanlar Orxanı tamamilə gözdən itirdilər.

Bax, bu zaman Vəfa ağlamağa başladı. Bənək yarıyoldan qayıdıb üzünü Vəfanın ayqlarına sürtüb, ona toxtaxtlıq verirdi. Həqiqət müəllimə də, uşaqlar da bir an nə edəcəklərini bilmədilər. Axı onların heç ağlına da gəlməzdi ki, belə bir iş olar. Orxanı xilas etmək lazım idi. Amma heç kəs bilmirdi ki, ona necə kömək etmək olar.

# Velosipedin ağaca ilişməsi

Adamlar əl-ayağa düşdüyü zaman Orxan meşələrin üstü ilə uçurdu. Doğrudan da əməlli-başlı qorxurdu. Başı fırlanırdı. Tərsinə uçanda necə qorxmuşdusa hələ də ayaqları əsirdi. Amma bu qorxu hissi bir azdan çəkilib getdi. Doğrudan da Orxan bilmirdi ki, yerə necə düşmək lazımdı. Bunu Vəfanın atası da ona deməyi tamam unutmuşdu. Sizə deyim ki, göydə uçmağın ləzzəti doğrudan bambaşqa imiş. Orxan balaca qara düyməyə oxşayan gözlərini qabağa zilləyib pedalı hərləməkdə idi. Əgər o bu saat pedalı yavaş hərləsəydi, velosiped şübhəsiz yavaş-yavaş aşağı düşərdi. Amma pedalı elə əvvəlki surətlə hərləməyində davam edirdi. Özü də pedal yerdəki kimi ağır hərlənmirdi. Azca ayağının ucunu toxunduran kimi böyük sürətlə fırlanırdı.

Günəş batırdı. Orxan isə hansı səmtə uçduğunu qətiyyən bilmirdi. Qarşıda dağlar görünürdü. Dağların başında qar vardı. Yaz olmasına baxmayaraq oralarda qar vardısa deməli dağın başı soyuq idi. İşin tərsliyindən velosiped düz ora uçurdu. Orxan nə qədər əlləşdisə velosipedin ağzını başqa səmtə çevirə bilmədi. Axı velosipedin rolu demək olar ki, öz əhəmiyyətini itirmişdi.

Bir azdan külək başladı və Orxanın işləri çətinləşdi. Çünki daha pedal heç bir iş görə bilmirdi. Külək velosipedi istədiyi səmtə aparırdı, vəssalam. Birdən külək necə fırladısa velosiped hündür bir çinar ağacının başına ilişib qaldı. Velosiped elə dayanmışdı ki, Orxan onun üstündən düşə büməzdi. Əgər azca tərpənsəydi gumbultu ilə yerə düşəcəkdi. Əgər yerə yıxılsaydı onda kim bilir nə olacaqdı.



# Qəmər xalanın telefon zəngləri

Orxan gözdən itəndən sonra hamı narahat olmağa başladı. Demək olar ki, şəhərin bütün sakinləri bu görünməmiş əhvalatı eşitdi və Vəfanın atası ilə Orxanın atası nə edəcəklərini bilmədilər. Məktəbin xadiməsi Qəmər xala hara gəldi zəng edirdi. Yanğınsöndürənlərin idarəsinə, avtomobil müfəttişliyinə, təcili yardım məntəqəsinə. Hamıya da eyni sözü deyirdi:

-Tez olun, məktəbin Orxan adlı şagirdi qəribə bir velosipeddə uçub ,harasa getdi. Təcili kömək əlinizi uzadın!

-Nə deyirsiniz? -Telefonun o başındakı adam Qəmər xalanın sözündən bir şey başa düşməyib, soruşdu.

-Eh, bu gün sizə nə olub, bilmirəm. Deyirəm ki, qəribə bir velosiped uşağı uçurub harasa aparıb. Daha orada boş bekar oturmayın. Kömək əlinizi uzadın!

Bilmirəm telefonun o başındakı adam bir şey başa düşdü, yoxsa yox. Qəmər xala telefonda kəsik siqnallar eşitdi:

-Dud-dud-dud...

-Daha hara zəng etmək olar?- Qəmər xala dilləndi. Amma onun sualına cavab verən olmadı. Vəfanın atası hardansa vertolyot tapıb gətirdi.

-Bu başqa məsələ. İndi daha heç yerə qaça bilməz, -deyə Qəmər xala sevindi. -Amma gözləyin, uşağı qorxudarsınız. Bu zəhrimar yaman tırıldayır.

Nə təcili yardım, nə yanğınsöndürən, nə də avtomobil müfəttişliyindən köməyə gələn olmadı. Qəmər xala onlara yağlı bir söyüş göndərməklə kifayətlənməli oldu.

Axtarış başlananda artıq qaranlıq düşmüşdü. Buna görə də Orxanı tapmaq mümkün olacağına demək olar ki, heç kəs inanmırdı. Vertolyot projektorlarını yandırdı. Qəmər xalanın dediyindən də bərk tırıldayıb, yavaş-yavaş havaya qalxdı.



# Vahiməli gecə

Orxanın velosipedi çinar budaqlarının üstündə dayanmışdı. Sizə deyim ki, hətta bu vəziyyətdə səhərə qədər gözləmək də olardı. Onsuz da çarə yox idi. Çinarın yoğun budaqları xeyli aşağıda idi. Orxan baxıb gördü ki, çinarın nisbətən iri budağından heç cürə tuta bilməyəcək. Buna görə də yerindəcə gözləməyi qərara aldı.

Uzaqdan vertolyot səsi gəlirdi. Onun tırıltısı gecə daha dəhşətli idi, elə bil yüz əjdaha dərədən çıxıb üstünə hücum edir. Amma Orxan qorxmadı. Çünki bilirdi ki, bu, əjdaha-zad deyil, vertolyotdur. Bir azdan vertolyotun dəhşətli səsi uzaqlarda yox oldu. Meşə yenə də əvvəlki kimi sakitləşdi. Qu desəydin qulaq tutulardı.

Birdən Orxan "miyo" səsi eşitdi, diqqətlə baxanda qaranlıqda iki yaşıl gözün ona zilləndiyini gördü və sizə deyim ki, xeyli qorxdu. Bu, çölpişiyi idi. Gecələr ov etməyi sevən çölpişiyi çinarın lap başındakı qəribə canlını görmüşdü. Axı çölpişiyi demək olar ki, bu meşələrdə gecə adam görməmişdi və Orxanın oturuşu ona qəribə gəldi. Çölpişiyi Orxana xeyli baxıb yavaş-yavaş çinarın başına dırmaşmağa başladı. Orxan pişiyin ehtiyatla çıxmağından başa düşdü ki, o da qorxur. Görünür çölpişiyi bu qəribə canlını qorxutmaq və beləliklə yerə salıb ovlamaq istəyirdi. Sizə deyim ki, adam çətinə düşəndə ağlı çox gözəl işləyir.

Orxan çölpişiyinin hiyləsini başa düşdü və özünü tox tutub onun yaxınlaşmasını gözlədi. Çölpişiyi yaxınlaşdıqca onun gözlərindən çıxan işıq mavi alov təsiri bağışlayırdı. Əgər Orxan özünü əvvəldən qorxutsaydı bəlkə də artıq yerə yıxılmışdı. Amma çölpi-

şiyinin mavi alova bənzəyən gözləri də, əyri və iti caynaqları da bu saat Orxanın vecinə deyildi. O,ancaq bircə şey fikirləşirdi ki, çölpişiyini necə qorxutsun. Burada kim qorxutsa ,qələbə də onun idi. Bax Orxan bu həqiqəti başa düşmüşdü.

Pişik onun təxminən üç metrliyində dayanıb gözlərini zilləmişdi. Orxan bir topa yarpaq qoparıb ona tulladı ki, bəlkə qorxub qaça. Çölpişiyi fınxırıb bir az geri çəkildisə də qorxmadı. Əksinə hücuma hazırlaşan pələng kimi çənəsini qabaq ayaqlarının üstünə söykəyib belini qabartdı. Orxan onun tüklərinin necə biz-biz durduğunu, quyruğunun isə arxa ayaqlarına sıxıldığını gördü.

Birdən Orxan velosipedinin zınqırovunu cingildətdi. Pişik necə qorxdusa bir neçə budaq aşağı yuvarlandı və özünü güclə saxlayıb yerə düşdü. Orxan onun kolların dibində gizləndiyini gördü.



# Çaqqal sürüsü və canavar

Vertolyot səsi yenə eşidildi. Bu dəfə vertolyotun tırıltısı lap yaxından gəlirdi. Hətta Orxan onun projektorlarının şöləsini də gördü. Bir azdan vertolyot Şamaxı dağlarına tərəf döndü və gözdən tamam itdi.

Acından Orxanın qarnı quruldayırdı. Bu saat evdə olsaydı nənəsi yəqin ki, onu danlaya-danlaya yedirəcəkdi. Eybi yox, qoy danlasın. Orxan məmnuniyyətlə nənəsinin sözlərini dinləyə-dinləyə doyunca yeyərdi. Birdən dəhşətli ulartı eşitdi. Bir çaqqal çinarın altında durub Orxana baxır və ulayırdı. Bir azdan çaqqal sürüsü göründü. Onlar çinarın altında elə dəhşətlə ulayırdılar ki, əvvəl Orxanın tükləri biz-biz oldu. Sonra o yavaş-yavaş bu səsə öyrəşdi. Çaqqallar bəlkə də hələ çox ulayacaqdı. Bu zaman daha güclü bir ulartı eşidildi və çaqqallar o saat əkildilər. Bir azdan Orxan ayın solğun işığında bir cüt gözün parıldadığını gördü. Bu gözlər çölpişiyinin gözlərinə qətiyyən bənzəmirdi. Bu gözlər daha çox batareya lampasının zəif işığına oxşayırdı. Çinarın kölgəsindən açıqlığa çıxanda Orxan boz kürklü qonağı tanıdı. Bu, canavar idi! Canavar çinarın dibində şöngüdü və ətrafa boylanmağa başladı. Görünür o iy bilmədiyi üçün Orxanın çinarın başında olduğunu başa düşmədi. Canavarı bura gətirən çaqqalların ulaşması idi. Çaqqallar yalnız ov görəndə belə ulayırdılar. Deməli ov haradasa bu aradaydı və canavar onu hökmən tapmalıydı.

İndi Orxanın əlləri və ayaqları həqiqətən sözünə baxmırdı.



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 85929

Orxan canavarın sakitcə dayanıb qaranlığa necə baxdığını gördü. O, elə səssiz dayanmışdı ki, meşənin əvvəlki sakitliyi yenə də adamın az qala qulağını batırırdı.

Orxana elə gəldi ki, canavar ovunun harada gizləndiyini bilmək istəyir. Gör necə də hiyləgərdir? Canavar birdən göyə baxdı. Görünür ulamaq istəyəndə canavarlar başlarını dik qaldırıb göyə ulayırlar. Bu boz canavar da bərkdən ulamaq üçün göyə baxdı və Orxanı gördü...



# Axtarış

Qəmər xala evə çatan kimi Orxanın bütün müəllimlərinə və şagird yoldaşlarına bu əhvalatı xəbər verdi. Axşam saat onda məktəbdə təcili iclas keçirildi. Pakizə müəllimə hamıdan çox narahat oldu. Orxan onun dərsində nə qədər şuluq salsa da görünür Pakizə müəllimə bu uşağı nədənsə çox istəyirdi. Orxanın ürəyinin nə qədər təmiz olduğunu Pakizə müəllimə hələ ona dərs deyəndə başa düşmüşdü. Necə olursa-olsun uşağı tapmaq lazım idi. Xoşbəxtlikdən məktəbin direktoru təcili yaradılan qərargahın sədrliyini Pakizə müəlliməyə tapşırdı.

Pakizə müəllimə uşaqları böldü. Hərəni bir müəllimə tapşırdı və hansı istiqamətdə axtarış aparmalı olduqlarını başa saldı. Hər dəstə təcili cib fənəri və məşəl tapmağa başladı. Dəstənin birinə isə Pakizə müəllimə özü rəhbərlik etdi. Rəşidlə Natiq də onun dəstəsində idi. Pakizə müəllimə Orxanın sevimli iti Bənək haqqında eşitmişdi. Heyif ki, sahibi ilə birlikdə Bənək də yoxa çıxmışdı. Nə qədər axtardılarsa Bənək tapılmadı ki, tapılmadı. Buna görə də axtarışa onsuz başladılar. Axtarış dəstələri az qala hər kolun dibinə, ağacın başına baxırdı. Amma gecə saat on ikiyə kimi Orxanın izinə belə düşə bilmədilər.

Rəşid dünənki velosiped yarışını uduzmuşdusa da başına belə iş gəlməyini qətiyyən istəmirdi. Çunki Orxanın belə bir fənd işlədib onu yarıyolda qoyması doğrusu Rəşidin xoşuna gəlmişdi:

-Görünür ağıllı oğlandır,-təriflədi.

-Sən də ağıllı oğlan tapdın də,-deyə Natiq etiraz etdi. Ağıllı oğlanı, budu, bütün məktəb axtarır. Kim bilir bəlkə də çaqqallar onu çoxdan o söz...

-Necə dilin gəlir, Orxan haqqında belə sözlər danışırsan,-Rəşid üzünü turşudub Natiqin cavabını verdi. Onlar diqqətlə ətrafa

baxa-baxa gedirdilər. Hər kol adama nəhəng əjdaha kimi görünürdü. Natiq yoldaşlarından bir an belə arxada qalmaq istəmirdi. Birdən çaqqallar ağız-ağıza verib ulaşmağa başladı. Bunlar Orxanın yanından qaçan həmin çaqqal sürüsü idi. Natiqin o saat dili tutuldu. Əlləri və ayaqları necə əsməyə başladısa daha yeriyə bilmədi və qışqırdı:

-Məni qoyub getməyin!

-Biz ki, sənin yanındayıq, ay çaqqaldan qorxan, -Rəşid onu sancdı. - Bu qədər adamın içində çaqqal sənə neyləyəcək?

Yox, Natiq özünə nə qədər ürək-dirək verirdisə bir şey çıxmırdı. Axırı ki, Rəşid onu darta-darta apardı.



# Canavarla söhbət

Bu dəfə vertolyot Orxanın təxminən iyirmi metirliyindən keçdi. Əvvəl ona elə gəldi ki, vertolyotun dəhşətli uğultusundan bu saat ağaclar sınıb yerə töküləcək. Hətta velosipedin ilişdiyi budaqlar, vertolyotun yelindən necə titrədisə, velosiped az qaldı aşsın. Orxan vertolyotun güclü projektorunun altında meşənin bir anda necə işıqlandığını gördü. Bu zaman bayaqdan bəri kolun dibində gizlənən çölpişiyi necə dəhşətlə miyoldayıb qaçdısa Orxanın əti ürpəşdi. Canavar isə bir göz qırpımında özünü kolluğa verib gizlənmək istədi. Lakin o gizlənənə qədər Orxan işıqda boz canavarın dodaqlarının altından çıxmış xəncər kimi iti dişlərini aydınca gördü. Canavarın qırmızı dili çöldə işıqda elə parıldadı ki, Orxanın sındırdığı güllü boşqabın qırıqlarına oxşadı. Vertolyot keçən kimi Orxana elə gəldi ki, meşə əvvəlkindən də qaranlıq oldu. Bir azdan ayın solğun şöləsi ətrafı yenə də gümüşü işığa qərq etdi. Boz canavarın cib fənərinə oxşayan gözləri yenə də parıldayırdı. O, Orxanı görmüşdü...

-Bura bax, sən mənə gözlərini çox zilləyəcəksən ?

Orxan indi gördü ki vəhşilər insanlardan necə qorxur. Canavar demək olar ki, çinarın altından iki yüz metr aralandı və hər cür ehtimala qarşı balaca bir kolun dalına girib gözlərini bərəltdi.

-Bax belə, -Orxan qışqırdı. -Bu meşədə hərə öz yerini bilmədi, ya yox?

Canavar insan dilini bilmədiyi üçün qulaqlarını şəkləyib diqqətlə baxırdı. Hərdən gözlərini yumub -açanda Orxana elə gəlirdi ki, cüt lampanı eyni vaxtda söndürüb-yandırırlar.

-Bura bax, bəlkə biz hətta dost ola bilərik, hə! Axı, sən bununla nə itirirsən? Eh, insan olsaydın sənə oxuduğum kitablardan danışardım. Görərdin ki, insanlarla heyvanlar necə dostluq edə bilirlər. Amma sən bu meşədə özünə ancaq yemək axtarırsan.

Orxan dil açmışdı. Sən demə adam danışanda bir az da cürətli olurmuş. Buna görə də canavarla söhbət etməyə girişdi:

-Bura bax, sən heç nəğmə oxuya bilirsən? Axı hardan biləsən, axşamacan yazıq dovşanların bağrını yarırsan, vaxtın var ki, nəğmə oxuyasan?! Amma, mən oxuya bilirəm. Bax belə.

Orxan məlahətli səslə oxumağa başladı. Canavar hər cür ehtimala qarşı bir az da aralandı və yenidən şöngüyüb dişlərini şaqqıldatdı. Bu zaman Orxanın velosipedi tərpəndi və az qala ağacdan yerə düşəcəkdi. Yaxşı ki, altdakı budaqlar daha yoğun idi. Velosipedi bir təhər saxlaya bildi. Amma altdakı budaq əyri olduğu üçün velosiped hər dəqiqə aşağı yuvarlana bilərdi.





# Dostları Orxanı axtarır

Vəfanın atası vertolyot dalınca gedəndə qardaşı gəlib çıxdı. Vəfa qardaşına dedi:

-Bilirsən, nə olub? Orxan uçub!

-Necə yəni uçub? Bircə bu çatmırdı!

-Hə, mənim gözümün qabağında uçub, getdi, gözdən itdi. Atam gedib onu axtarmağa. Nə olar, gəl, biz də gedək.

-Bir əməlli başa sal görüm, necə yəni uçub? Mən bilən sənin dostun quş deyil, adamdı, elə bizim kimi. Hətta başı da var. Düzdü başı bir az çatmır, amma, bunun mətləbə dəxli yoxdur.

-Əgər mənimlə Orxanı axtarmağa getməsən daha sənin bacın olmayacağam.

Manaf vəziyyətin ciddi olduğunu başa düşüb, əhvalatı əməlli danışmasını xahiş etdi. Vəfa da hamısını danışdı.

-De ki, dostumu özüm uçurmuşam da! Daha sənin kimi dostu olana düşmən nə lazım!

Vəfa ağlamağa başladı.

-Yaxşı, gözlərinin yaşını sil. Bu saat gedib sənin o uçağan dostunu taparıq.

Manaf tez geyindi.

-Bura bax, axı deyəsən sən , onun bir ağıllı iti olduğunu mənə demişdin. Onu götürə bilərikmi?

-Əlbəttə, götürərik, -Vəfa qardaşından qabaq həyətə düşüb qışqırdı.

-Bənək!!!

Bənək elə bil yerin altından çıxdı. Quyruğunu bulayıb Vəfanın ayaqlarına sarıldı.



-Orxanı axtarmağa gedirik, -qız ciddi tərzdə dedi.

Bənək necə tullandısa, az qaldı Vəfanın başına düşsün.O yuxarı tullanıb göydə mayallaq aşmaq istəyirdi. Amma görünür sevindiyindən mayalllaq aşa bilmədi və qızı qorxutdu:

-Ay səfeh, məni öldürmüşdün ki! Manaf həyətə düşəndə Bənək bir də beləcə tullandı və bu dəfə doğrudan da göydə mayallaq aşdı.

-Yaxşı, yaxşı, özünü göstərmə ,görək.

Manaf ciddi görkəm almışdı. Orxanı harada axtarmaq haqqında düşünürdü. Zarafat deyil, əsgərlikdən təzəcə gəlmişdi və orada belə şeyləri öyrənmişdi. Amma fikirləşməyinə deyəsən ehtiyac qalmadı. Bənək hürüb qabağa tullandı. Görünür o bir şey bilir ki, belə edir. Vəfa ilə Manaf Bənəyin ardınca düşdülər.

# Axtarış nəticə vermir

Artıq dörd saata yaxın idi ki, yol gedirdilər. Vəfa çoxdan yorulub qardaşının çiynində öz yerini tutmuşdu. Əlbəttə, hərdən düşüb yeriyirdi. Amma, bu yolu səkkiz yaşlı uşağın getməsi doğrudan da mümkün deyildi. Bənək tez-tez çevrilib geri baxır, həvəslə qabağa cumurdu. Tozlu meşə yoluna çönəndə hava xeyli sərinlədi. Qaranlıqda hər kol nəhəng fili xatırladırdı. Bənək sürətlə irəliləyirdi, demək olar ki, qaçırdı. Manaf da ondan geri qalmırdı. Onlar gəlib geniş bir talaya çatdılar. Manaf yaşıl otların üstündə maşın izi gördü. Deməli dünən, bəlkə də bir həftə əvvəl buralara maşın da gəlmişdi.

Bənək talaya çatanda iri yulğun kolunun dibinə yüyürdü və sevinclə hürdü. Bu zaman toyuq qaqqıltısı eşidildi. Vəfa qorxub qardaşının boynundan bərk-bərk yapışdı. Bu gecənin qaranlığında toyuq hardan gəlib çıxdı. Bir azdan ətcə balalar civildəşməyə başladılar. Toyuq qanadlarını şax tutub döyüşə hazır vəziyyətdə dayanmışdı. Bənək toyuğun yanında sevinclə atılıb-düşür, üzünü Manafın və Vəfanın ayaqlarına sürtürdü.

-Bura bax, biz ova gəlməmişik. Başa düşdün? Bizə heç bir toyuq-zad lazım deyil. Sən bizi hara gətirib çıxarmısan?

Bənək quyruğunu elə yazıq-yazıq buladı ki, Vəfa az qaldı ağlasın. Axı bu it nə hoqqa idi, çıxarırdı. Bunu nə Vəfa, nə də Manaf başa düşdü. Onlar başa düşmədilər ki, bu həmin çöltoyuğudur. Cəmi bircə həftə əvvəl Orxangil ova gələndə Mahir həmin bu toyuğu vurmaq istəyirdi. Orxanla Bənək onları xilas etdi. İndi çöltoyuğunun və balalarının salamat olmasını görən Bənək sevinirdi. Birdən elə o zaman havaya millənən çölxoruzu yadına düşdü və qanı qaraldı. Vəfa onun qıvrım tüklərini sığalladı. Bu zaman kolun dibindən bir şey pırıltı ilə havaya qalxdı. Manaf fənəri çevirəndə xoruzun yaşıl-çəhrayı quyruğunu gördü və bu zaman Bənək necə həyəcanla hürdüsə uzaqdan çaqqal sürüsü ulamaqla onun səsinə səs verdi. Görünür çaqqal sürüsü gecənin yarısı meşədə it olacağını qətiyyən gözləmirdi və ona görə də sərbəst gəzirdi. İt səsini eşidib sürətlə qaçmağa başladılar. Onların ulaması demək olar ki, meşənin lap o biri başından eşidildi.

Bənək yaşıl talaya çıxıb Orxanın ovlamaq istədiyi ceyran kimi əvvəl düz Manafın üstünə ğəldi. Sonra eyni ilə həmin ceyran kimi ürküb qaçdı və bir anda meşənin qaranlığında gözdən itdi. Bənək onlara həmin əhvalatı başa salmaq istəyirdi. Orxanın qəribə ovçuluğunu onlara söyləyirdi. Amma Vəfa ilə Manaf Bənəyin nə demək istədiyini başa düşmədilər. Manaf astadan dedi:

-Deyəsən Bənəyin ağlı çaşıb.

Bir anda onun ağlına gəldi ki, Bənək dəli olub. Əgər belə olsa Manafın işi xeyli çətinləşərdi. Əvvəl gərək Bənəkdən birtəhər yaxalarını qurtaraydılar. Sonra da gecənin bu vaxtı vəhşi heyvanlardan sağ-salamat qurtarmaq haqqında düşünəydilər.

Bənək onların heç nə başa düşmədiyini görüb, arxa ayaqlarının üstünə qalxdı və bərkdən zingildədi. Bu o demək idi ki, siz nə dilqanmaz adamlarsınız.

Sonra sahilə qaçdı. Mahirin balıq tutduğu çəmənliyi tapıb yerə uzandı və həmin balıq kimi çabalamağa başladı. Xeyli beləcə çabalayandan sonra suya atıldı. Xeyli suda üzüb geri qayıtdı. Üstbaşı tamam islanmışdı. Çırpınıb qıvrım tüklərini təmizlədi. Manafla Vəfanın bir şey başa düşmədiyini yəqin edib qulaqlarını salladı. Manaf :

-Bura bax, deyəsən özünü təlxəkliyə qoymusan! Orxanın yerini bizə deyəcəksən, ya yox?!

Bu zaman Bənəyin necə yazıq görkəm aldığını görsəydiniz neyləyəcəyinizi bilməzdiniz. Manaf indi başa düşdü ki, Bənək Orxanın yerini bilmir və bir saatdı ki, havayıca onların vaxtını alır.

# Orxan Bənəyin səsini eşidir

Orxan Bənəyin səsini eşidəndə sevindi. Doğrudur, səs meşənin demək olar ki, o başından gəlirdi: amma Orxan sevimli itinin səsini o saat tanıdı. Bənək nəsə müxtəlif səslər çıxarırdı. Bəzən həyəcanla hürür, bəzən də sevinclə mırıldayırdı. Orxan başa düşdü ki, Bənək tək deyil. Görünür it yanındakılara nəyisə başa salırdı. Canavar it səsini eşidib qulaqlarını cütlədi. Amma yerindən tərpənmədi.Görünür gecənin belə qaranlığında it onun üçün heç də qorxulu rəqib deyildi. Orxan səsi gəldikcə qışqırdı:

-Bənək!!!

Onun səsi meşədə əks-səda versə də Bənəyə gəlib çatmadı. Çünki Orxan çox uzaqda idi və bu uzaqlıqdan onun səsi eşidilə bilməzdi.

Birdən vertolyot səsi eşidildi. Bu dəfə vertolyot onun az qala üstündən keçdi. Orxan yalnız indi başa düşdü ki, bu vertalyot deyəsən onu axtarır. Səsi gəldikcə qışqırdı:

-Au...-Amma vertolyotun dəhşətli tırıltısı onun səsini tamam batırdı. Projektorun gur işıqları Orxanın oturduğu çinarın dibini gündüz kimi parıldatdı. Heyf ki, işıq Orxanın üstünə düşmədiyi üçün onu görən olmadı. Nəhəng çəyirtkəyə oxşayan vertolyot guruldaya-guruldaya ötüb getdi.

Vertolyotun səsindən qorxan canavar qaçıb gözdən itdi və hər tərəf qaranlığa qərq olandan sonra kolun dibindən yenə də gözlərini parıdada-parıldada Orxana baxmağa başladı. Görünür canavar hələ ümidini tamam üzməmişdi. Ayın solğun işığında Orxan onun ağzından su damcıladığını gördü.



-Lap axmaqsan, -Orxan ona baxdı. -Axı sən məni yeyib neyləyəcəksən? Səhərdən burda keçirdiyin vaxtda çoxdan bir-iki dovşan ovlamışdın. Çıx get. Bu saat Bənək gəlsə axırına çıxacaq.

Canavar qulaqlarını dikəldib Orxana baxırdı. Sonra başını sallayıb kolluqda yox oldu. Orxan onun geniş talaya çıxdığını və necə gözdən itdiyini gördü. Uşaq dərindən nəfəs alıb öz-özünə dedi:

-Nahaq yerə canavarı qovdum. Yenə söhbət edirdik. İndi tək-təkinə otur səhəri gözlə, görüm necə gözləyirsən!

# Uşaqlar Orxanın səsini eşitmir

Meşənin lap uzaq başında Bənəyin səsi eşidildi. Orxan başa düşdü ki, onu axtaranlar tamam başqa istiqamətə getdilər.

Birdən yaxınlıqda çoxlu uşaq səsi eşidildi. Onların əlində fənər və məşəllər yanırdı. Orxan bu adamların onun dalınca gəldiyini əvvəl başa düşmədi. Sonra qatma-qarışıq səslərin içindən Rəşidin səsini aydınca eşitdi. O hündürdən kiməsə deyirdi:

-Belə qorxurdun gəlməyəydin. Pakizə müəllimənin yanında sinənə döyürdün ki, heç nədən qorxmazsan. Tülküdən də qorxaqmışsan.

-Axı hər tərəf qaranlıqdı. Adama elə gəlir ki, kollar bu saat adamyeyənə çevrilib üstünə atılacaq.

Orxan Natiqin səsini tanıdı və fit çaldı. Sonra hündürdən qışqırıb onları səslədi:

-Eheyy. Rəşid! Mən burdayam!

-Amma uşaqların hay-küyü o qədər güclü idi ki, onlar Orxanın səsini eşitmədilər. Eləcə səs-küy sala-sala yolla ötüb getdilər. Orxan daha bir neçə dəfə qışqırdı. Di gəl ki, onu axtaranlar elə bil qulaqlarına pambıq tıxamışdılar. Bir azdan onların səsi tamam eşidilməz oldu.



# Tutuquşu

-Bunlar da belə getdi. Hər şeyə birtəhər dözmək olar, amma aclığa dözmək mümkün deyil. Bircə parça çörək olsaydı elə yavanca, ləzzətlə yeyərdim. Bəlkə yarpaq yeyim hə!

Çinar yarpağının dadına baxdı. Acı idi. Yox belə yarpaqları yəqin ki, yemirlər. Bu boyda boyu var, amma yarpaqları acıdı, heç olmazsa yerdə olsaydım, bir şey tapardım. Velosipedin qanadları çinar yarpaqlarına möhkəm ilişmişdi. Bir azdan buludlar çəkildi və ayın parıltısı xeyli artdı. İndi çinarın dibi əməlli-başlı görünürdü. Birdən meşəyə məlahətli səs yayıldı:

-Bup-bob, bibbi-bob!

Tutuquşu idi. Onun cır səsi meşənin o başına gedib çatırdı. Orxan vaxtilə məktəbin canlı guşəsindən azad etdiyi həmin tutuquşunu bu saat görmək istəyirdi. Bəlkə tutuquşu da Orxanın itdiyini eşitmişdi. Ona görə belə yanıqlı oxuyurdu. Bəli səsində bir nigarançılıq duyulurdu.

Tutuquşunun səsini ilk dəfə Rəşid eşitdi.

-Həmin tutuquşudur! -qışqırdı. -Onun səsini yüz quşun içindən tanıyaram.

-Amma qəmli oxuyur, -kimsə dilləndi.

-Tutuquşular həmişə belə oxuyur, -Natiq səsi titrəyə-titrəyə dedi. O hətta tutuquşunun səsindən də qorxmuşdu.

-Yox tutuquşular həmişə qəmli oxumur. Görünür bu quşa nəsə olub.

-Yaxşı, bəs biz Orxanı harda axtaraq hə!

-Mənə elə gəlir ki, onun velosipedi uçub başqa planetə gedib, daha axtarmağın mənası yoxdur, -Natiq yenə də titrək səslə dilləndi.-Yaxşısı budur qayıdaq evə. Az qala bütün kolların dibini axtarmışıq.

-Biz onu tapmayınca qayıtmayacağıq! Başa düşdün? İstəyirsən sən qayıt, -Rəşid çox ciddi şəkildə dedi.

Yazıq Natiq hara qayıda bilərdi? Qorxusundan heç bir addım da ata bilməzdi. Qorxaqlığını gizlətmək üçün dedi:

-Nə danışırsınız, siz hara, mən də ora?!

Bir azdan tutuquşu Orxanın əyləşdiyi çinara qondu və eyni həyəcanla oxumağa başladı. Uşaqlar isə onun nəğməsinə əhəmiyyət verməyərək uzaqlaşdı. Bu dəfə tutuquşu öz nəğməsini daha ucadan və daha qəmli oxudu:

-Bub-bob...bibbi-bob,bub-bob,bibbi-bob...

-Yazıq tutuquşu, -Rəşid dönüb geriyə baxdı.-Görünür nəsə çox dərdlidir.

-Eh, adamın da quşa yazığı gələr.-Natiq hirsləndi.-Quş adam deyil ha.

Rəşid onun sözünü kəsdi:

-Səhv edirsən, həmin o tutuquşunun bizim guşədən qaçmağına indi çox şadam. Quş olanda nə olar. Dünyada azadlıqdan yaxşı şey yoxdu.

Manaf bir kötüyün üstündə oturub, başını əllərinin arasına almışdı. Orxanın izinə heç cür düşmək olmurdu. Vəfa da eynilə qardaşı kimi oturub qaranlığa baxırdı. Əlbəttə bütün təqsirləri o özündə görürdü. Dostunun qələbə çalması üçün bu lənətə gəlmiş qanadlı velosipedi o icad etmişdi. Amma heç kəsin ağlına gəlməmişdi ki, belə bir iş ola bilər. Atası mühəndis-konstruktor olmasına baxmayaraq, onun da qətiyyən belə bir şey ağlına gəlməmişdi.



# Vəfanın xəcalət çəkməsi

Vəfanın yadına iki il əvvəl Orxanla tanış olandan sonra Mahirlə onun arasında baş verən əhvalat düşdü. Mahir ilk dəfə onlara gəlmişdi. Vəfanı qucağına götürüb, yumru sifətindən öpdü və keçi saqqalına oxşayan saçını sığallayıb dedi:

-Sən nə qəşəng küçüksən, böyüyüb qəşəng bir it olacaqsan.

Vəfa sevinclə Mahirin üzünə baxıb dedi:

-Əmi can, siz böyümüsünüz, bəs niyə it olmamısınız?

Doğrudur, evdəkilər əvvəlcə gülüşdülər. Amma sonra deyəsən hamı pərt oldu. Axı qonağa belə söz deməzdilər. Vəfa aradakı pərtliyi götürmək üçün o biri otağa qaçdı və qardaşının ona bağışladığı qəşəng rəsm əsərini gətirib Mahirə göstərdi. Mahir əsəri çox bəyəndi və dodaqaltı soruşdu:

-Görəsən bunu kim çəkib?

-Özüm çəkmişəm, -deyib Vəfa qürrələndi.

Mahir heyrətlə Vəfaya baxdı. Əlbəttə onun rəssam olduğunu bilirdi. Amma belə gözəl əsər yarada biləcəyinə qətiyyən inanmadı. Kağız-qələm istədi və Vəfaya baxıb dedi:

-Xahiş edirəm bu əsəri bir də çəkəsən.

Vəfa məsələnin ciddiliyini görüb, qələmi alnına dirədi və dedi:

-Mahir əmi, mən belə şəkilləri bircə dəfə çəkə bilirəm. İstəyirsiniz sizə dovşan şəkli çəkim.

Vəfa o zaman yalan danışdığı üçün indi xəcalət çəkirdi. Əslində bu söhbətləri indi hamı unutmuşdu. Onları bəlkə də xatırlamağına dəyməzdi. Amma Vəfa qızarmışdı. Yaxşı ki, qaranlıq idi və qardaşı onun birdən niyə pörtdüyünü görmədi.

# Bənəyin yaralanması

Onlar beləcə əyləşib dərin fıkrə getdikləri zaman Bənək iyləmədiyi kol dibi qoymamışdı. Hər tərəfi axtarmışdı. Bənək görmüşdü ki, bir az bundan əvvəl buradan çölpişiyi, sonra canavar keçib. Qəribədir ki, onların hər ikisi eyni tərəfə getmişdi. Görəsən o tərəfdə nə vardı. Bənəyin ağlına nə gəldisə qəzəblə hürdü və Manafı arxasınca gəlməyə çağırdı.

Manaf itin həyəcanını başa düşdü. Axı it iybilmə qabiliyyətinə görə bəlkə də bütün canlılardan ən həssasıdır. Buna görə də havanı iyləməklə onun gəldiyi nəticələrə inanmaq olardı.

Bənək qabaqda, Manafla Vəfa onun ardınca qaçmağa başladılar. Bənək burnunu yerdən çəkmirdi. Canavarın bəbir iyini xatırladan izi ilə pişiyin izləri az qala eyni cığırla gedirdi. Bənək tələsirdi. Ürəyinə nə dammışdısa bu saat yüyürmək istəyirdi. Heyf ki, Manafgilin onu itirə biləcəyindən qorxurdu.

Hardansa meşənin dərinliyindən vertolyot qalxdı. Görünür vertolyotdakılar meşədə piyada gəzmişdilər. Sonra yenidən axtarışa başlayıblar. Vertolyot düz Bənəyin başının üstündən keçdi. Vertolyotdan atəş açıldı. Bənək vaxtında kənara çəkilməsəydi Mahirin atdığı güllə onu yerə sərəcəkdi. Sən demə canavar ulamasını Mahirgil də eşidibmiş və Orxanın səhərə qədər salamat qala bilməsi üçün canavarı öldürməyi qərara alıblarmış. Onlar yuxarıdan Bənəyi canavar hesab edib atəş açmışdılar. Bənəyin təkcə qabaq ayağı yaralanmışdı. Bir azdan fənərin işığında Manaf Bənəyin qabaq ayağından axan qanı gördü. Qan qara tükün üstündə laxtalanırdı.



-Dayan görüm, -Manaf onu birtəhər saxladı və cib dəsmalı ilə Bənəyin yarasını sarıdı. Bənək isə irəli atılmaq istəyir, yarasına qətiyyən əhəmiyyət vermirdi.

Vəfa arxadan özünü Bənəyə yetirib onun başını sığalladı:

-Bağışla onları. Axı, kimin ağlına gələr ki, gecənin bu vaxtı meşənin ortasında vurnuxan sənsən.

Vəfanın sözləri Bənəyi xeyli sakitləşdirdi. O yenə də bəbir iyini tutub meşənin o başına doğru qaçmağa başladı. Bu iz Orxanın ilişib qaldığı çinara tərəf gedirdi.

# Orxanın ağacdan düşməsi və canavarın hücuma hazırlaşması

Bir azdan külək başladı. Velosiped tərpəndi. Orxan əvvəl nə edəcəyini bilmədi. Çinarın başından yıxılsa yəqin ki, salamat qurtarmazdı. Gərək müvazinətini saxlayıb düz düşəydi və velosipedin pedalını hərləməliydi ki, uça bilsin. Küləyin başlaması ilə canavarın yenidən qayıtması bir oldu. Hər şey aydın idi. Adi vaxtlarda bizə qanmaz kimi görünən canavar hər şeyi başa düşmüşdü. O başa düşmüşdü ki, külək Orxanı ağacdan hökmən yerə salacaqdı.

Günbatandan əsən güclü külək çinarı möhkəm silkələdi. Budaqlar bir-birindən aralandı və Orxanın velosipedi havada bir dəfə mayallaq aşıb düzəldi. Amma velosipedin uçmasına imkan yox idi. Onun qanadları başqa bir ağacın gövdəsinə dəyib yerə düşdü. Canavarın sevincdən gözləri parıldadı və ayağa durub ehtiyatla Orxana tərəf getməyə başladı. Onun iti dişləri qıcanmışdı. Orxan gördü ki, canavarın beli əvvəlkindən də bərk qabarıb və tükləri biz-biz durub. Deməli bu vəhşi hücuma hazırlaşırdı. Cəmi bir neçə dəqiqədən sonra canavar onun üstünə atılacaqdı...



# Bənək tələsir

Külək başlayanda Bənək ağzını göyə tutub hürdü. Əvvəlkindən də bərk qaçmağa başladı. Manaf Vəfanı boynuna alıb qaçırdı. Hərdən ağacların altından keçəndə budaqlar Vəfanın saçlarını yolurdu, boynunu dalayırdı. Amma qız qabağa baxırdı. Nəsə onun da ürəyinə dammışdı. Elə bil hiss etmişdi ki, Orxana kömək etməyin vaxtı lap bu saatdı. Bircə dəqiqə geciksələr, hər şey alt-üst ola bilər, bax orasını nə Bənək bilirdi, nə də Vəfa.

Fit səsi eşidildi. Canavar bir az geri çəkilib bu fitin hansı tərəfdən gəldiyini dinşədi. Fit çalan Rəşid idi. Elə-belə fit çalırdı ki, bəlkə Orxan eşidib cavab verə. Birdən Orxan da fıt çaldı. Meşənin qaranlığında onun çaldığı fit yalan olmasın paravoz fiti qədər güclü göründü və canavar durduğu yerdən xeyli geri çəkildi. Rəşid fitlə bir də onu səslədi. Uşaqlar Orxanın fitini eşitmişdilər. Amma bu fitin hansı tərəfdən gəldiyini ayırd etmək mümkün deyildi.

Buna görə də Rəşid fit verib, sonra diqqətlə cavab gözlədi. Bu zaman Bənəyin səsi eşidildi. O demək olar ki, canavara çatmışdı. Canavar hələ də dişlərini qıcadıb Orxana baxırdı və bu çağırılmamış qonağın haradan gəlib çıxdığını ayırd edənə qədər Bənək canavarın arxasına tullanıb boynundan yapışdı. Onlar xeyli süpürləşdilər. Vəfa qardaşının boynundan düşüb Bənəklə boğuşan bu yad iti qovmaq istədi. Bu zaman canavar görünməmiş bir fənd işlətdi. Dombalaq aşıb Bənəyi altına basdı və sıçrayıb düz Vəfanın yanına düşdü. Canavar Vəfayla Manafın böyürdən çıxacaqlarını qətiyyən gözləmirdi. Buna görə də çaşıb düz qızın başının üstündən tullandı

və gözdən itdi. Yalnız canavar gözdən itəndən sonra Orxanı gördülər. Orxan velosipedinə söykənib, Bənəyin igidliyinə baxırdı.

Bir azdan Pakizə müəllimənin dəstəsi gəlib çıxdı. Uşaqlar Orxanı sağ-salamat görüb sevindilər. Vəfayla Bənək də çox sevindi. Amma hansının daha çox sevindiyini demək çətindi. Onların hər ikisi Orxanı ürəkdən sevirdi...



# İçindəkilər

Orxanla Vəfanin taniş olmasi ........ 3
Uçan maşinlar ........ 5
Velosiped yarişina hazirliq ........ 6
Vəfanin atasi ........ 7
Velosipedin qanadi ........ 8
Yariş başlanir ........ 10
Velosiped uçur ........ 11
Velosipedin ağaca ilişməsi ........ 12
Qəmər xalanin telefon zəngləri ........ 13
Vahiməli gecə ........ 15
Çaqqal sürüsü və canavar ........ 17
Axtariş ........ 19
Canavarla söhbət ........ 21
Dostlari orxani axtarir ........ 24
Axtariş naticə vermir ........ 26
Orxan Bənəyin səsini eşidir ........ 28
Uşaqlar Orxanın səsini eşitmir ........ 30
Tutuquşu ........ 31
Vəfanin xəcalət çəkməsi ........ 33
Bənəyin yaralanmasi ........ 34
Orxanin ağacdan düşməsi və canavarin hücuma hazirlaşmasi ........ 36
Bənək tələsir ........ 37

**Zahid Xəlil**

# ORXAN VƏFA VƏ BƏNƏK

Redaktor: Rafiq Yusifoğlu
Korrektor: Gülnar İbrahimova
Rəssam-dizayner: Sevər Şovqatova

85929
000000003296



Zahid Xəlil

*"Zolotoy telyonok" mükafatı laureatı Zahid Xəlil şair, nasir və uşaq ədəbiyyatını tədqiq edən görkəmli alimdir. Onun 1987-ci ildə Moskvada rus dilində nəşr olunmuş-povest, hekayə və poemalardan ibarət "Salam Cırtdan" kitabı SSRİ üzrə ilin ən yaxşı uşaq kitabı müsabiqəsinin qalibi olmuş və elə həmin il Moskvada keçirilən Beynəlxalq kitab yarmarkasında nümayiş etdirilmişdir. "Günəbaxanlar böyüyəcək" adlı şeirlər kitabı Moskvada iki milyon tirajla nəşr olunmuşdur.*

*Bu kitab yazıçının "Orxan və Dostları" romanından bitkin bir parçadır. Həm real, həm də fantastik planda yazılan bu kitab xoşunuza gələcəkdir.*